# Müəlliflik qonorarının və royaltinin məcburi dövlət sosial sığorta ödənişlərinə cəlb olunması



**Müəlliflik haqqı və ya qonorar ilə royalti arasındakı fərq və oxşarlıqlar vergi ödəyicilərində bəzi sualların yaranmasına səbəb olur. Həmin suallara "vergiler.az" üçün sərbəst auditor Altay Cəfərov aydınlıq gətirib.**

"Sosial sığorta haqqında" qanunun 15-ci maddəsinə əsasən, məcburi dövlət sosial sığorta haqqı, bəzi gəlir növləri istisna olunmaqla, əmək ödənişinin və gəlirlərin bütün növlərinə hesablanır. İstisnalardan biri də muzdlu işə və sahibkarlıq fəaliyyətinə aid olmayan gəlirlərdir (faiz gəliri, dividend, əmlakın icarəyə verilməsindən gəlir, royalti (müəlliflik qonorarı istisna olmaqla).

Qanunun 14.5.4-cü maddəsində isə göstərilir ki, müəlliflik qonorarı ödəyən hüquqi və fiziki şəxslər üçün ödəmə mənbəyindən tutulmaqla - hesablanmış qonorar məbləğinin 15 faizi miqdarında məcburi dövlət sosial sığorta haqqı ödənilməlidir.

## Bəs müəlliflik qonorarı royalti sayılırmı?

Müəlliflik qonorarı ilə bağlı məsələlər "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" qanunla tənzimlənir. Ədəbiyyat, audio, kino və s. əsərlərinin müəllifləri yaratdıqları əsərlərdən digər şəxslərin istifadə etməsi üçün qonorar alırlar, yaxud digər şəxslər belə əsərlərin yaradılmasını sifariş edir və müəlliflər bunu yaradırlar, amma mülkiyyət (müəlliflik hüququ) onu yaradanda qalır. Odur ki, nəticə etibarilə qonorar royalti anlayışına uyğun gəlir.

"Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" qanunun 4-cü maddəsində müəlliflik hüququna aid olan əsərlərin geniş siyahısı verilib. Hətta proqram təminatının yaradılması da müəlliflik hüququna aid edilib.

Ona görə də royaltiyə aid xidmətlərin siyahısında göstərilən əsərlərin çoxuna görə alınan ödənişlər müəlliflik qonorarına aid edildiyindən vergi ödəyiciləri bu məsələdə diqqətli olmalıdırlar. Bəzi xidmətlər müəlliflik qonorarına aid olmasa da, royalti sayılır.

Nəticə olaraq royaltiyə görə ödəniş aparanda ilkin olaraq bunun müəllif qonorarı sayıldığı, yoxsa ümumi halda royalti olduğu müəyyənləşdirilməlidir.

**Misal:** "AA" MMC 2022-ci ilin mart ayında fiziki şəxsə sifariş verdiyi kitaba görə müqavilə əsasında 2.000 manat qonorar hesablayıb (müəlliflik hüququ fiziki şəxsdə qalıb). "AA" MMC tərəfindən bu vəsait 2022-ci ilin aprel ayında ödənilib.